# Ağlın toxluğundan qəlbin aclığına



■ Fərid Hüseyn

### İKİ QADIN VƏ GÖZLƏNTİLƏR

Əsərin sonlarına yaxın Dollinin Anna ilə görüş səhnəsi öz-özlüyündə çox mürəkkəb bir səhnədir. Bu səhnədəki ştirixlər, elementlər həm də Annanın yaşadığı mühitin xarakterini açır. Dolli onu at üstündə görəndə düşünür ki, Anna Kareninanın indiki halı yaşına uyuşmur, bu cür miniklə gəzmək ədəbsizlikdir. Ancaq ata minməк Annanın işvəkarlığına xas hərəkətdir və bu, onun gözəlliyini daha da tamamlayır. Belə olan təqdirdə Dolli dərhal öz fikrindən daşınır. Ancaq Dollinin ilk fikri Annanın gözəlliyini rəqib gözündə görməsinin nişanəsidir, bu amili qətiyyən nəzərdən qaçırmaq olmaz. Anna da öz növbəsində Dollini sancmaq istəyir. O, ağzını doldurur ki, Dolliyə arıqladığını desin, fəqət ona heyranlıqla baxan Dollinin gözlərindən oxuyur ki, o, hədsiz dərəcədə gözəlləşib və bu məqamda onun sözü dilindəcə qalır.

Sonra qadın psixologiyasının daha iynəli, dolaşıq bir məqamı üzə çıxır: Anna düşünür ki, birdən ərini, uşaqlarını atıb getmiş bir qadının bunca gözəlləşməsi, daxilən həyat ilə ləbaləb olması, sevincinin aşıbdaşması Dollidə təəccüb, hətta ikrah oyada bilər. Belə olan təqdirdə Dollinin duyulası təəccübü də olduqca təhqiramizdir.

Qadın psixologiyasında belə bir anlaşılmaz məqam da var: Bəzən bir-birini sevməyən qadınlar bir-birini alçaltmaq üçün onları xoşbəxt edən səbəbləri gözdən salır, onlara rişxəndlə axtarır. Yəni, bir tərəf digərinə hiss etdirir ki, sənin xoşbəxtliyinə baiskar filankəsdirsə, xoşbəxt olmana səbəb bu cür adiliklərdirsə, gör sən nə qədər aciz, məğlub və yazıq insansan. Oxşar vəziyyət üstüörtülü şəkildə Anna ilə Dolli arasında da yaşanır. Anna Karenina qadın fəhmi ilə eyni münasibəti qarşı tərəfdən duyur və onun qarşılığında cavab verir: *"Sən mənə baxırsan və düşünürsən ki, mənim vəziyyətimdə olan bir adam xoşbəxt ola bilərmi? Nə etmək olar! Etiraf etmək xəcalətli olsa da, mən bağışlanmayacaq qədər xoşbəxtəm. Sanki başıma sehrli bir iş gəlib, sanki qorxunc və dəhşətli yuxu gördüm, birdən ayılıb hiss etdim ki, bu qorxuların heç biri yoxdur. Mən yuxudan ayılmışam. Mən iztirablı və qorxunc hisslər keçirdim, indisə artıq çoxdan, xüsusilə burda olduğum vaxtdan bəri elə xoşbəxtəm ki!".*

Anna hər nə qədər cəmiyyətin fikrini gözə almamağa çalışsa da, insanların onun haqqında nə düşündüyünü bilmək istəyir, çünki o, öz əməlinə kənar gözlə baxmağın təşnəsini qəlbində tamamilə söndürə bilmir. Bu mənada Tolstoy sanki bu baş qəhrəmanla - Anna Karenina ilə oynayır: Onu gah cəmiyyətlə münasibətdə ucaldır, gah cəmiyyətlə eyni mövqeyə qoyur. Anna özü də ruhən və mənən bu get-gəllərin arasında sıxışıb qalıb. Bu məsələləri (Anna və cəmiyyət münasibətləri kontekstində) şərh edərkən bir yerdə bir cür, başqa bir yerdə fərqli mülahizə yürütməyimin səbəbi də budur. Hadisələri süjet axarı ilə şərh etdiyimiz üçün fikirlərimiz baş qəhrəmanın xarakterinə və düşdüyü duruma görə dəyişir. Yəni əsəri paralel - oxucularla eyni anda oxuyurmuşuq kimi şərh edirik, mütaliəni bitirmiş biri kimi deyil.

Sonra nə baş verir? Anna Karenina təkidlə Dollidən soruşur: *"Sən mənim vəziyyətimi necə təsəvvür edirsən, nə düşünürsən, nə?"*

Ancaq Annanın aldığı cavab onun ürəyini soyutmur, çünki o cavab ağılla, qəlbə dəyməmək üçün verilir və səmimiyyətdən çox-çox uzaqdır: Dolli deyir: *"Mən heç bir şey hesab etmirəm, mən səni həmişə sevmişəm. Və əgər birini sevirsənsə, onu sənin istədiyin kimi deyil, olduğu kimi qəbul edib bütünlüklə sevməlisən".*

Nə üçün bu cür kamil, fəlsəfi cavab Annanın ürəyincə olmur, çünki Anna bilir ki, dildə deyilən bu sözlərin qəlbin iradəsi, ürəyin mövqeyi deyil. Anna əsərdəki ilk xəyanət anından sonra demək olar ki, romantikdən realistə çevrilir, onu çılpaq həqiqətlər, insanı yaralayan doğru sözlər, ədalətli kəskin mövqe daha çox razı salır, nəinki üstüörtülü, pərdəli fikirlər, qeyri-səmimi təskinliklər. Anna Dollinin o sözlərindən sonra fikrə gedir və eyni qeyri-səmimiliklə də cavab verir: *"Əgər sənin günahın olsaydı, gəlişin və bu sözlərin üçün hamısı bağışlanardı".*

Anna bu məqamda ruhunu idarə edə bilmir, maraqlarının diktəsini cilovlamağı bacarmır, arzuladığı, planlaşdırdığı kimi olmağa gücü çatmır. Bəs Anna necə olmaq istəyir, onun xilası nədədir? O deyir: *"Mən istəmirəm ki, mənim nəyisə sübut etməyə çalışdığımı düşünsünlər. Mən heç bir şeyi sübut etmək istəmirəm, mən, sadəcə yaşamaq istəyirəm. Özümdən başqa heç kimə pislik etmək istəmirəm".*

Tolstoyun qəribə bir detalçılığı var, özü də o, bu cür detalları işarələrin dilinə deyil, mahiyyətin dilinə çevib oxuculara çatdırır. Dolli Annanı görərkən fikir verir ki, onda qəribə bir vərdiş yaranıb, o, özü haqqında danışarkən nədənsə gözlərini qıyıb danışır, əvvəllər isə onun belə bir adəti yox idi. Əsərin içərisində bu detal ilk baxışdan adi təsir bağışlayır və yazıçının təsvirçiliyi kimi yadda qalır. Sonra Dolli Vronski ilə də söhbət edir. Onlar öz aralarında Annanın əvvəlki ərindən hələ də boşanmamağı və bu barədəki problemlərdən danışırlar və bu müşkülün həlli yolları barədə fikir mübadiləsi aparırlar. Bu məqamda Dollinin yadına Annanın yeni vərdişi - qəribə halda gözlərini qıymağı düşür və o, qeyri-ixtiyari fikirləşir ki, Anna ancaq həyatın mənəvi tərəflərindən danışanda gözlərini bu cür qıyır: *"Anna sanki öz həyatına gözlərini qıyaraq baxır ki, hər şeyi görməsin".* Bu detalla bir qadının digərinin həqiqətinə münasibəti açılır. Tolstoy yenə dahiliyindən qalmır: Vronski Dollidən soruşur: *"Bu vəziyyətin ağırlığına baxmayaraq siz onu yenə də sevirsiniz və ona kömək etmək istəyirsiniz. Mən düzgün anlamışam?" Dolli cavab verir: - "Əlbəttə".* Tolstoy "Əlbəttə" yazmaqla və az əvvəl Dollinin Annanın gözünü qıymasını xatırlaması ilə onların arasındakı münasibəti daha da aydınlaşdırır.

Tolstoy sanki üst qatda hər şeyin elə olduğuna şübhə yaratmamağa çalışır, onlar arasında davam edən canlı dialoqlar, əslində, həm də buna xidmət edir, ancaq dərin qatdakı münasibətlərdə olduqca mürəkkəb qadın psixologiyası çözülür. Qadınların kişilərdən bir qüvvətli cəhəti də onların hisslərini mümkün qədər büruzə verməmələridir, qadınlar kişilərə nisbətdə sevmədiyi nəsnələrə daha çox dözə bilir. Vronski ilə Dolli söhbət zamanı kübar cəmiyyət məsələsindən də danışırlar. Dolli deyir ki, Annanın indiki durumu kübar cəmiyyətdə olduqca ağırdır. Vronski isə cavab verir ki, bizim bu malikanədə kübar cəmiyyətə ehtiyacımız yoxdur, biz öz yaşayışımızla xoşbəxtik. Bu zaman Dollinin düşüncələri bütün çılpaqlığı ilə açılır: *"İndiyə kimi, bəlkə də, həmişəlik siz xoşbəxt və sakitsiniz. Mən Annaya baxıb görürəm ki, o, xoşbəxtdir, tamamilə xoşbəxtdir, o artıq bunu mənə deyib. - Darya Aleksandrovna gülümsəyərək dedi və bunu söyləyərkən qeyri-ixtiyari qəlbini şübhə bürüdü, görəsən, Anna, doğurdanmı, xoşbəxtdir?"*

Tolstoy bu şübhə məsələsini xüsusi vurğulayır. Bu məqam həm qadınların bir-birinə qarşı dərin qatdakı nifrətlərinin ifadəsidir, həm də aldanmaz qadın instinktinin göstəricisidir. Tolstoy qadın düşüncəsini bütün çılpaqlığı ilə, mürəkkəbliyi ilə açır - nəticədə üzdə yox, dərinliklərdə axan sular görünür. Burda əsas məqam nədir? Dolli gələn kimi cəmiyyətin mövqeyi yenidən Anna və Vronski məhəbbətinə müdaxilə etməyə, onları onunla hesablaşmağa vadar edir. Tolstoy göstərir ki, cəmiyyətdən tam mənada xilas, az qala, mümkünsüzdür, bu dünyada bu dünyasız yaşamaq olmur...

### XOŞBƏXTLİYİN İSTƏYİ

Vronskinin durumu daha çətindir, çünki o, Annadan fərqli olaraq mahiyyət etibarı ilə, demək olar, heç nəyə tam sahib deyil. Onun heç sözün böyük mənasında sahib olduğu əzəmətli keçmişi də yoxdur. Bu vəziyyətdə o sadəcə xəyallarına söykənib yaşaya bilməz, o, real həyatına sahib çıxmalıdır. Hər halda, reallıq bunu ondan tələb edir. Belə olan təqdirdə Vronski düşdüyü durumdan bir çıxış yolu tapmalıdır və nəticədə əldə etdiklərinə daha artıq sahiblənmək haqqını qazanmalıdır. Darya Aleksandrovna onların malikanəsinə gələndə Vronski onunla təkbətək söhbətləşmək üçün fürsət axtarır, girəvə gəzir. Ancaq belə bir fürsət, bu cür bir məqam axır ki yetişir: onlar təkbətək qalırlar. Və Vronski uşaqları və Anna barədəki qəlbindəki narahatlığını Daryanın önündə belə dilə gətirir: *"Biz məhəbbətin ən müqəddəs bağlarıyla birləşmişik. Bizim uşağımız var, bizim yenə də uşağımız ola bilər. Lakin qanun və bizim vəziyyətimizin şərtləri belədir ki, qarşıya minlərlə çətinlik çıxır. Anna indi, bütün çəkdiyi iztirablardan və sınaqlardan sonra ruhən istirahət etdiyi bir vaxtda bunları görmür və görmək də istəmir. Bu, aydındır. Lakin mən görməyə bilmərəm. Mənim qızım qanuna görə mənim qızım deyil, Kareninindir. Mən bu yalanı istəmirəm". Sonra Vronski daha da hiddətlənir: "Sabah oğlum olacaq, mənim oğlum, ancaq o qanuna görə Karenindir, o nə mənim adımın, nə də sərvətimin varisi deyil. Biz ailədə nə qədər xoşbəxt olsaq da, uşağımız olsa da, mənim onlarla aramda bir əlaqəm yoxdur". Bu xüsusda söhbət Vronski tərəfindən yenə davam etdirilir: "Əsas odur ki, gördüyüm işlərin mənimlə birgə ölməyəcəyinə və varislərimin olacağına əmin olmaq lazımdır. Bu əminliksə məndə yoxdur. Özünün və sevdiyin qadının uşaqlarının onların deyil, başqa birisinin, onlara nifrət edən, onları tanımaq istəməyən bir şəxsin olacağını əvvəlcədən bilən bir adamın vəziyyətini təsəvvür edin. Axı bu, dəhşətdir".*

Vronskinin bunları danışmaqda məqsədi ondan ibarətdir ki, Darya Aleksandrovna Annadan xahiş etsin ki, o, Kareninaya məktub yazıb boşanmalarını istəsin. Vronski Daryaya deyir ki, Karenin özü bildirmişdi ki, Anna boşanmaq barədə ona müraciət etsə, o imtina etməyəcək. Əgər Anna ilə Karenin boşansa, onda Vronski tam mənada uşaqlarının və qadınının hüquqi və dini sahibi olacaq. Bu məqamı nə üçün yazıram? Çünki Tolstoy bu məqamda insanın naəlaclığını, çarəsizliyini dərin boyalarla əks etdirir. Göstərir ki, ey insan, sən hansısa işə təzə-təzə başlayanda gedəcəyin yol sənə asan görünür, amma elə ki o yolun ortasına yetişirsən, onda başa düşürsən ki, hələ qət ediləsi məsafə çoxdur və keçdiyin yol daha səni bezdirib, boğaza yığıb və bu, özü-özlüyündə də çox mənasızdır, əbəs yerə canında taqət qalmayıb, dizində təpər yoxdur. Ona görə də məhəbbətin ilk qərarları çox vaxt tələsik olur, adətən, sonrakı çətinliklər nəzərə alınmır. Vronskidə də vəziyyət belədir, o, Annanı sevəndə, onunla ailə quranda bu cür müşküllərin meydana çıxacağını düşünmürdü, hətta bu haqda ona həmin anda nəsə desəydilər, o cavab verərdi ki, uşaqların kimə aid olacağı məsələsi onu düşündürmür, Annanın kimin soyadını daşıması xırda məsələlərdir, əsas olan birgəlik, məhəbbətin gücü sayəsində əldə olunan xoşbəxtlikdir. Ancaq Vronski yaşadıqca, reallıqlarla üzləşdikcə görür ki, yox, məhəbbətin mənzili uzaq imiş, ömür "bu gün-sabah" qədər qısa deyilmiş, yaşadıqca meydana min cür çətinlik çıxır, gərək onları həll edəsən, onlardan keçəsən.



Bu problemin Vronskini düşündürməsi artıq real məhəbbətin qaydaları ilə hesablaşmaq, cəmiyyətin tabularına uyğunlaşmaq deməkdir. Əgər qəhrəman bu məqama gəlib yetişibsə, deməli, Vronskinin qəlbində azad eşq azalıb, yerinə hamıya göstərilən, nümayiş etdirilən adi məhəbbət gəlibdir. Məhəbbət qurban tələb edəndə o daha çox reallıq kimi təzahür edir. Məhəbbətdə, səadətdə mütləq platonik nələrsə olmalıdır, əks halda, həyat onları ayaqları altına atıb əzir. Vronski dəli-dolluluqdan, göz yummaq bacarığından, nəzərdən düşmək qorxusundan uzaqlaşıb - o, artıq varislik tələb edir, həqiqi atalığını bərpa etmək istəyir. Daha dərin qatda isə cismən və ruhən sahibləndiyi qadına rəsmən də yiyələnmək iddiasındadır. İnsan vətənindən ayırdığı heç nəyə sonacan sahib ola bilmir. Ağacı əkildiyi yerdən çıxardıb başqa bir yerdə basdırırsan, o əvvəlki kimi qol-budaq atmır, quşu öz yuvasından başqa bir yerə aparırsan, ora tam yovuşa bilmir, məhəbbəti də göylərdən yerə endirəndə o məhv olur. Tolstoy bütün bunlar azmış kimi faciəyə ikinci işarəni də edir: Vronski bu düşüncələrə o vaxt qapılıb ki, Anna həddən artıq məsuddur, könül xoşluğu ilə yaşayır, hətta özü haqqında "bağışlanmayacaq qədər xoşbəxtəm" deyir. Yəni Anna məhəbbətin zirvəsinə çatanda Vronski üzü aşağı enməyə başlayır.